*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***10 (1) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023.*




***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received :13.07.2023***
***Kabul tarihi |Accepted: 25.07.2023***
***Yayın tarihi |Published : 25.08.2023***



**Yusif Hüseynov**

*https://orcid.org/0009-0003-8228-1095*
*Nakhchivan State University, Doctor of Philosophy, Associate Professor, Azerbaijan, y.h.huseynov@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Hüseynov, Y. (2023). Azərbaycan Türkiyə Münasibətlərində Ümummilli Lider Heydər Əliyevin Rolu. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 221-229.

# Azərbaycan Türkiyə Münasibətlərində Ümummilli Lider Heydər Əliyevin Rolu

***Öz***

*Azərbaycanın xarici siyasətinin əsas vəzifələri və prinsipləri, başlıca istiqamətləri, milli mənafe və yerli şəraitdən irəli gələn xüsusiyyətləri özünəməxsusluğu Heydər Əliyev tərəfindən düşünülmüş elmi nəzəri əsaslara malik bir proqrama çevrilərək, ulu öndərin müəllifi olduğu Azərbaycan konstitusiyasında təsbit olundu: Konstitusiyamızın 7–ci maddəsinin II bəndində göstərilir: "Azərbaycan respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır". Beynəlxalq münasibətlərin prinsiplərini ifadə edən 10–cu maddədə qeyd olunur ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul olunmuş*

*beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur"*[1] *Əlbəttə müstəqillik qazandıqdan sonra Azərbaycanın dünyanın bir çox dövlətləri ilə xüsusilə Türkiyə Respublikası ilə güclü qarşılıqlı əlaqələri qurulmuşdur. Məqalədə müstəqil Azərbaycan Respublikasının xarici siyasət strategiyasının formalaşmasında və Azərbaycan-Türkiyə münasibətlərində ümummilli lider Heydər Əliyüvin rolu, onun bu istiqamətdə gördüyü işlər ,eləcə də qazandığı uğurlar təhlil olunmuşdur*

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, Türkiyə, xarici siyasət*

## The Role of Lider Hayder Aliyev in the Relations of Azerbaijan and Turkey

***Abstract***

*The main tasks and principles of Azerbaijan's foreign policy, the main directions, the peculiarities arising from national interests and local conditions, turned into a program with a scientific theoretical basis, conceived by Heydar Aliyev, and established in the constitution of Azerbaijan, which was authored by the great leader: Article 7, clause II of our Constitution states: "State power in the Republic of Azerbaijan is limited only by law in internal matters, and in foreign matters only by the provisions arising from the international agreements to which the Republic of Azerbaijan is a party." Article 10, which expresses the principles of international relations, states that "the Republic of Azerbaijan establishes its relations with other states on the basis of the principles stipulated in universally accepted international legal norms". (1) Of course, after gaining independence, Azerbaijan has established strong mutual relations with many countries of the world, especially with the Republic of Turkey. In the article, the role of the national leader Heydar Aliyuvin in the formation of the foreign policy strategy of the independent Republic of Azerbaijan and Azerbaijan-Turkey relations, his work in this direction, as well as his achievements were analyzed.*

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, Turkey, foreign policy*

### Giriş

Heydər Əliyev 1993-cü ilin oktyabr ayının 10-da prezident seçilməsi ilə əlaqədar keçirilən andiçmə mərasimindəki çıxışında demişdir: "Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük, lakin eyni zamanda nəyin bahasına olursa olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Guman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tapacaqdır."

[1] *Bu konu ile alakalı olarak geniş bilgi için bkz.* (Azərbaycan Respublikasının Konstitusiyası. (2009). Qanun nəşriyyatı).

(Həsənov, 1998). Ulu öndərin milli mənafelərə əsaslanan tarazlaşdırılmış xarici siyasəti əsasən aşağıdakı məsələlərin həllinə istiqamətləndirilmişdi.

-Azərbaycanı beynəlxalq aləmdəki təcrid və vəziyyətindən çıxarmaq;

-Azərbaycanın beynəlxalq imicinə zərər vuran məqamları aradan qaldırmaq;

-Haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq;

- Azərbaycan ətrafındakı informasiya blokadasını yarmaq;

-Azərbaycanın taleyində təsiredici rol oynaya bilən dövlətlərlə münasibətlərdə yaradılmış əsassız gərginliyi aradan qaldırmaq;

-Qonşu ölkələrlə münasibətlərin yaxşılaşdırılmasına, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin bərpa edilməsinə və qorunub saxlanılmasına nail olmaq;

-Böyük dövlətlərlə sıx əlaqələr yaradıb bunları daha da genişləndirmək, müxtəlif universal və regional beynəlxalq təşkilatlara qoşulub onlarda fəal iştirak etməklə Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə inteqrasiyasını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etmək;

-Ölkəmizin zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları qoşaraq onların fəal dəstəyinə nail olmaq (Məmmədov, 2008). Azərbaycanın xarici siyasətinin əsas vəzifələri və prinsipləri, başlıca istiqamətləri, milli mənafe və yerli şəraitdən irəli gələn xüsusiyyətləri özünəməxsusluğu Heydər Əliyev tərəfindən düşünülmüş elmi nəzəri əsaslara malik bir proqrama çevrilərək, ulu öndərin müəllifi olduğu Azərbaycan konstitusiyasında təsbit olundu: Konstitusiyamızın 7–ci maddəsinin II bəndində göstərilir: "Azərbaycan respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır". Beynəlxalq münasibətlərin prinsiplərini ifadə edən 10–cu maddədə qeyd olunur ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur" (Azərbaycan Respublikasının Konstitusiyası, 2009). Azərbaycanın yeni xarici siyasət kursunda qonşu ölkələrlə, habelə müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Bu ölkələrlə münasibətlərdə süni olaraq yaradılmış və həll edilməmiş problemlər mövcud idi. Türkiyə ilə münasibətlərə belə real şəraiti nəzərə alınmadan düzgün yanaşılmamışdır. Çox təcrübəli siyasətçi olan Heydər Əliyev bu ölkələrlə münasibətlərdə

tezliklə dönüş yaradaraq onlarla qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan sivilizasiyalı münasibətlər qurub inkişaf etdirilməsinə nail oldu.

Azərbaycanın böyük dövlət xadimi ümummilli Lider Prezident Heydər Əliyevin eyni kök, dil, din, tarix və mədəniyyətə malik olan türk dünyasına, türk millətinə və Türkiyəyə qarşı böyük rəğbəti var idi. Heydər Əliyevdə türkçülük hissləri onun gəncliyinin ilk çağlarında, hələ orta məktəb şagirdi ikən oyanmışdı. Özünün də ifadə etdiyi kimi: "Uşaq ikən və gənc yaşlarımda Türkiyəyə böyük hörmətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğəti və dərsliyini əldə etmişdim və türk dilini öyrənirdim. Bunu açıq deyə bilərəm ki, müəllimim də var idi, bir müddət –iki-üç il - mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən, indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın, məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı hamımızı heyran edən bir əsər idi. Ancaq mən "Çalıquşu"nu 13-14 yaşımda oxumuşdum… Türkiyənin böyük yazıçılarının, şairlərinin əsərləri indi də mənim gözümün qabağındadır. Yəni mənim gənc yaşlarımda bu da təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur, içimdən,kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissdir ki, Türkiyəyə böyük maraqla və heyranlıqla baxırdım" (Heydər Əliyev və Şərq, 2003). Böyük dövlət xadimi H.Əliyevi hələ ilk gənclik illərindən Türkiyəyə bağlayan hisslər onu həyatının heç bir dövründə tərk etməmişdi. Türkiyənin Baş naziri Süleyman Dəmirəlin 1967-ci ildə Sovet İttifaqının tərkibində olan Azərbaycana gəlişini unutmadığını və bu görüşdə yaşadığı həyəcan hissini hər zaman dilə gətirən H. Əliyev 1969-cu ildə ölkə rəhbərliyinə gəldiyi zaman Türkiyəyə olan rəğbət və səmimiyyətini əməli işi ilə sübut etmişdir. H. Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə aşağıdakı məsələlərin həyata keçməsinə səy göstərmişdir:

• Sovet İttifaqının Türkiyə və dünya türkləri ilə dost olması, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi və bu işdə Azərbaycanın başlıca rol alması;

• Sovet İttifaqının tərkibində olan Azərbaycanla Türkiyə arasında birbaşa münasibətlərin qurulması mümkün olmadığı üçün elm, mədəniyyət və ədəbiyyat əlaqələrinin yaradılması və inkişaf etdirilməsi;

• 70-ci illərdə türkiyəli dövlət xadimlərinin Azərbaycana edilən rəsmi səfərlərinin sayının artırılması;

• Türkiyə ilə mədəni əlaqələrdə Azərbaycanın daha geniş iştirakını təmin etmək üçün SSRİ rəhbərliyi qarşısında konkret məsələlərin qoyulması;

• Azərbaycanın türkologiya sahəsində SSRİ-də ən qabaqcıl ölkəsinə çevrilməsi (Heydər Əliyev və Şərq, 2003).

Qeyd etmək lazımdır ki, H. Əliyevə qədər Sovet Azərbaycanına rəhbərlik etmiş şəxslərdən heç biri Türkiyə ilə münasibətlərin inkişaf etdirilməsinə dair SSRİ rəhbərliyi qarşısında belə tutarlı, əsaslandırılmış və cəsarətli təkliflər qaldırmamışdır. H. Əliyev SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsində işləyərkən də bu siyasəti davam etdirmişdir. İllər sonra taleyini bağladığı Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri olarkən Türkiyə ilə yaxından və sıx əlaqə saxlamışdır. H. Əliyevin “Biz bir millət, iki dövlətik” tarixi sözünün, çox səmimi və illər öncəsinə əsaslanan bir düşüncənin məhsulu olduğu məlumdur. Ömrünü ölkəsinə və xalqına həsr edən Azərbaycanın böyük dövlət xadimi ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu 1990-cı ildən izlədiyi xarici siyasətdə Türkiyə münasibətlərinə xüsusi bir həssaslıq və qayğı ilə yanaşmışdır. “Azərbaycan mənim ürəyimdir” deyən, Azərbaycanın dünya miqyaslı siyasətçisi və dövlət xadimi Heydər Əliyev qarşısında duran əsas vəzifələrdən biri olaraq Azərbaycanın dünyaya tanıtdırılması istiqamətində böyük işlər görmüş, uğurlu addımlar atmışdır.

Türkiyə ilə olan əlaqələrin xüsusi bir xarakter daşıdığını, başqa dövlətlərlə olan münasibətlərdən fərqləndiyini bildirən Heydər Əliyev, Azərbaycanın xarici siyasətində Türkiyə Cümhuriyyətinin yeri və əhəmiyyətini aşağıdakı sözlərlə ifadə etmişdir: “Azərbaycan üçün Türkiyədən yaxın dost və qardaş dövlət yoxdur. Türkiyə üçün də bütün ölkələr və xalqlar arasında Azərbaycan qədər dost və qardaş ölkə yoxdur… Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır. Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri davam edəcək və heç bir qüvvə buna təsir göstərə bilməyəcəkdir” (Məmmədov, 2008).

1993-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan-Turkiyə munasibətlərində də yeni bir mərhələnin başlaması və Azərbaycandakı bu dəyişikliyə cox boyuk onəm verən Türkiyə prezidenti Süleyman Dəmirəl 1994-cu ilin yanvar ayında Azərbaycan prezidenti H. Əliyevə məktubla muraciət edib, iki qardaş olkə arasında movcud olan əlaqələrin genişləndirilməsinə və daha da mohkəmləndirilməsinə xususi əhəmiyyət verdiyini bildirərək munasib vaxtda onu Turkiyəyə rəsmi səfərə dəvət etmişdir.

Dəvəti boyuk məmuniyyətlə qəbul edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1994-cu ilin fevral ayının 8-11-də Turkiyə Cumhuriyyətində rəsmi səfərdə oldu Səfər

zamanı, Azərbaycan dovlətinin başcısı iki olkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi məqsədi daşıyan danışıqlara və goruşlərə boyuk fikir vermişdir. Elə səfərin ilk gunundəcə iki qardaş olkə prezdientlərinin rəhbərliyi ilə ikitərəfli danışıqlar keçirildi. Danışıqlar iki olkə arasında muxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə imkan yaradan bir sıra muhum muqavilə və protokolların imzalanması ilə nəticələndi. Belə ki, Azərbaycan ilə Turkiyə arasındakı dovlətlərarası munasibətləri tənzimləyəcək 16 muhum sənəd imzalanmışdır. Bu sənədlər icərisindəki ən muhumlərindən biri də Heydər Əliyev və S. Dəmirəl tərəfindən imzalanmış iki olkə arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqındakı muqavilə oldu. İmzalanan sənədlər arasında ayrı-ayrı sahələr uzrə – iqtisadiyyat, səhiyyə, maliyyə, təhsil, mədəniyyət və gomruk əlaqələri barədə sənədlər də var idi (Azərbaycan qəzeti, 1994, 16 fevral). Heydər Əliyev Türkiyə Cümhuriyyətinə etdiyi ilk rəsmi səfəri zamanı Ankarada ziyarət etdiyi "Anıtqəbir" məqbərəsindəki xatirə kitabında aşağıdakı ürək sözlərini yazmışdı: "Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər dahi Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm, ona Azərbaycan xalqının hədsiz məhəbbət və ehtiramını ifadə edirəm. Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır" (Heydər Əliyev və Şərq, 2003). Prezidentlər "Cankaya" koşkundə kecirilmiş muqavilələrin imzalanması mərasimində bağlanmış sazişlərə yuksək qiymət verərək bildirmişdirlər ki, qəbul edilmiş bu sənədlər Azərbaycan Respublikası ilə Turkiyə Cumhuriyyəti arasındakı hərtərəfli munasibətlərin daha da mohkəmləndirilməsində və dərinləşməsində muhum rol oynayacaqdır. Prezident H.Əliyev mərasimdəki cıxışı zamanı demişdir: "Hazırlanmış sazişlər, muqavilələr, anlaşmalar tarixi sənədlərdir və bizim gələcək əlaqələrimiz ucun yeni yollar, yeni cığırlar acır. Sizi əmin etmək istəyirəm ki, biz bu yolla gedəcəyik və bu yoldan donməyəcəyik" (Azərbaycan qəzeti, 1994, 16 fevral).

Elə həmin gun, TBMM-də Azərbaycan prezidenti boyuk məruzə ilə cıxış etmişdir. Cıxış zamanı Heydər Əliyev Turkiyənin hər bir zaman Azərbaycan xalqının yanında olduğunu, ağır zamanlarında ona arxa durduğunu fəxrlə qeyd edərək demişdir ki, xalqımız demokratik dovlət qurduğu bir zamanda Turkiyə Azərbaycanla bir olmuş, bərabər fəaliyyət gostərmiş, ozunu təsdiq sahəsində ona cox boyuk yardım etmişdir. Heydər Əliyev butun bunların təbii olduğunu qeyd edərək demişdir ki, Turkiyə ilə Azərbaycan arasındakı əlaqələrin boyuk tarixi vardır. Biz koku bir olan xalqlarıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu

xalqımız bir-birinə oxşayan, yaxud az fərqlənən adət və ənənələrinin, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişdilər. Əsrlər boyu xalqlarımız bir olmuş, ciyin-ciyinə vermişlər. Azərbaycan ilə Turkiyə arsında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kokdən gələn xalqların əlaqələridir. Bu kecmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkanımız olmadığı vaxtda da qəlbimizdə məhz belə olmuşdur, indi də belə olmaqla qalır. Ona gorə də tariximiz, milli koklərimiz, adət-ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Odur ki, bundan sonra da hec bir quvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir (Azərbaycan qəzeti, 1994, 16 fevral).

Goruş zamanı oz cıxışında Azərbaycan Respublikasının mustəqillik əldə edərək, secdiyi inkişaf yolunda daha mətin olduğunu və bu işdə Turkiyə dovlətinin ona komək edəcəyini bildirən Süleyman Dəmirəl demişdir: "Cətin şəraitə baxmayaraq, muasir Azərbaycan bir dovlət olmağa, sosial dəyişikliklər prosesini ahəngdar şəkildə davam etdirməyə calışır, sərbəst bazar iqtisadiyyatına kecidin bunovrəsini qoymağa hazırlaşır. Nəhayət, azərbaycanlı qardaşlarımız demokratik sistemi bərqərar etmək niyyətində və əzmindədir.

Butun bu cəhətlər yaxında olan istiqbala birlikdə umidlə baxmağa əsas verir. Hər iki dovlətin demokratik idealı olması xalqlarımız arasındakı guclu əlaqələrə yeni bir təkan verəcəkdir"(4)

Heydər Əliyev Ankara Hacıtəpə Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimindəki çıxışında demişdir: "Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi vardır. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün imkanlara malikik və Azərbaycan ilə Türkiyə arasındakı əlaqələr dostluq və qardaşlıq əlaqələri olmaqla yanaşı, həm də iş əlaqələridir. Biz bu əlaqələri daha sürətlə davam etdirəcəyik" (Heydər Əliyev və Şərq, 2003). H. Əliyev, Atatürkə olan sayğısını, Türkiyənin Azərbaycan üçün nümunəvi bir ölkə olduğunu və Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin xüsusi xarakter daşıyacağını, başqa dövlətlərlə olan münasibətlərdən fərqlənəcəyini xüsusi olaraq qeyd etmişdir.

**Nəticə**

Beləliklə, Heydər Əliyevin xarici siyasət konsepsiyasında Türkiyə çox əhəmiyyətli bir yer tutmuş və xüsusi bir mövqeyə sahib olmuşdur. Heydər Əliyevin 1993-cü il oktyabr ayının 10-da Azərbaycan Respublikasının Prezidenti seçildiyi tarixdən başlayaraq, Türkiyəyə üç rəsmi,

iki qeyri-rəsmi və on beş işgüzar səfər etməsi və Türkiyənin dövlət və idarə adamlarının eyni səviyyədə Azərbaycana səfər etmələri, 1992–2003-cü illər arasında elm, təhsil, mədəniyyət, iqtisadiyyat, nəqliyyat və müdafiə sahəsində, habelə əsrin layihəsi adlandırılan Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinə dair sənədlərin imzalanması və sonradan həyata keçirilməsi Heydər Əliyevin Azərbaycanın xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və strateji birliyin digər ölkələrdən çox fərqli olduğunu göstərir. Ümummilli lider Heydər Əliyevin dövlət idarəçiliyində onu səciyyələndirən dərin zəka, uzaqgörənlik, şəxsi liderlik keyfiyyətləri, zəngin həyat təcrübəsi və ömür yolu Azərbaycanın ümidi və gələcəyinin təminatçıları sayılan gənclər, Azərbaycanın dövlət vəzifələrində çalışan məsul dövlət xadimləri, siyasət adamları və türk dünyasının gələcək liderləri üçün əvəzsiz mənbə olaraq qalacaqdır. Butun cətinliklərə baxmayaraq, Azərbaycan muasir bir dovlət olmağa, sosial dəyişikliklər prosesini ahəngdar şəkildə davam etdirərək sərbəst, bazar iqtisadiyyatına kecidə nail olmuşdur. Odur ki, Azərbaycan xalqı demokratik sistemi bərqərar etmək sahəsində ciddi iş gormuşdur. Azərbaycan xalqının demokratik ideyalı olması dünya dovlətlərilə əlaqələrinin genişləndirilməsi ucun təkan olmuşdur. Əməkdaşlığa dair Azərbaycanın Turkiyə ilə imzaladığı sənədlər bir daha gostərir ki, bu olkələrin bir-birinə həm siyasi, həm də iqtisadi maraqları vardır və onları inkişaf etdirmək istəyirlər. Heydər Əliyevin Azərbaycan hakimiyyətinə gəlişi və onun xarici siyasət kursu turkdilli dovlətlərə, xüsusilə Türkiyə ilə qurulan dostluq və əməkdaşlıq munasibətləri yeni inkişaf mərhələsinin əsasını qoydu. Son zamanlar Rusiya və Türkiyənin Dağlıq Qarabağ probleminin həlli istiqamətində səyləri güclənmişdir. Cənubi Qafqazda, xüsusilə Azərbaycanda maraqları olan Rusiya, İran, ABŞ və Qərbi Avropa dövlətlərindən fərqli olaraq Türkiyə Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, beynəlxalq hüquq normalarına müvafiq həllinin tərəfdarıdır və öz regional siyasətini həmin istiqamətdə qurur. Ümumiyyətlə, Türkiyə Dağlıq Qarabağ münaqişəsində digər “güc mərkəzləri” nə nisbətən həmişə birtərəfli, düzgün siyasi mövqe nümayiş etdirir. Türkiyənin Azərbaycanda strateji maraqları Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərir. Şübhə yoxdur ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həll ediləcəkdir. Zaman Azərbaycanın xeyrinə işləyir və torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xarici siyasət strategiyası bu gün də uğurla davam etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan ölkə prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Türkiyə Cumhuriyyəti ilə münasibətlərinə böyük önəm verir və xalqımız onun siyasətini

yekdilliklə dəstəkləyir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən layiqincə irəli aparılan bu siyasət Azərbaycanı demokratik və inkişaf etmiş dövlətlər sırasına çıxarmışdır. Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi beynəlxalq münasibətlərin fəal aktoruna çevrilmişdir.

**Ədəbiyyat**

*Azərbaycan Respublikasının Konstitusiyası*. (2009). Qanun nəşriyyatı.

Heydər Əliyev və Şərq. (2003). (I kitab).

Həsənov, Ə. (1998). *Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996).* (Neşriyat yok).

Məmmədov, N. (2008). *Heydər Əliyevin xarici siyasət doktorinası. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş konfransın materialları.*

1994, 16 fevral). *Azərbaycan qəzeti*.